

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 229 (23.391)

*5 dekabr 2019-cu il, cümə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva dekabrın 4-də Bakı Ekspo Mərkəzində XXV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisi – “Bakutel-2019” ilə tanış olublar.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə və “Caspian Event Organisers” şirkətinin region üzrə direktoru Edvard Stroun dövlətimizin başçısına və birinci xanıma 25 illik yubileyini qeyd edən builki sərgi haqqında məlumat veriblər.

* * *

Dövlət başçısı həmin gün Türkiyə Respublikasının Kənd Təsərrüfatı və Meşəçilik naziri Bekir Pakdemirlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Prezident İlham Əliyev dekabrın 4-də Rüstəm Xəlilovu Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı, Vüqar Novruzovu Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar qəbul edib.




# Naxçıvanda Şeyxülislam Allahşükür Paşazadənin 70 illik yubileyi qeyd olunub





Dekabrın 4-də Naxçıvanda Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin isə 40 illik yubileyi qeyd olunmuşdur.

Tədbir müqəddəs “Qurani-Kərim”dən ayələrin oxunması ilə başlanmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2019-cu il 9 aprel tarixli Sərəncamına əsasən Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin isə 40 illik yubileyinin ölkəmizdə geniş qeyd olunduğunu bildirmiş, yubileylər münasibətilə Allahşükür Paşazadə Həzrətlərini təbrik etmiş, ona uzun ömür və möhkəm cansağlığı arzulamışdır.

Ali Məclisin Sədri demişdir: Tarixə nəzər salsaq, aydın görmək mümkündür ki, din o yerdə mənəvi dəyər kimi formalaşır ki, orada dövlət başçıları dini dəyərlərə qayğı ilə yanaşır, din xadimlərinin fəaliyyətinə hərtərəfli şərait yaradırlar. Ötən əsrin 70-80-ci illəri və 1993-cü ildən sonrakı dövr Azərbaycan tarixində belə bir mərhələ təşkil etmişdir. Ümummilli liderimiz Heydər Əliyev ölkəmizə hər iki rəhbərliyi dövründə dinə münasibətdə fərqli yanaşma ortaya qoymuş, dini-mənəvi dəyərlərimizin qorunub yaşadılması qayğısına qalmışdır. Bu gün ölkə Prezidenti tərəfindən davam etdirilən bu siyasət, Azərbaycanda formalaşmış dövlət-din münasibətləri, tolerantlıq və dini həmrəylik dünyada nümunə kimi qəbul edilir. Görkəmli din xadimi Şeyxülislam Allahşükür Paşazadə də fəaliyyətində ümummilli liderin ideyalarına sonsuz sədaqəti ilə seçilmiş, İslam dininin düzgün təbliği, cəmiyyətdə dini-mənəvi həmrəyliyin möhkəmləndirilməsi və dövlət-din münasibətlərinin inkişafında mühüm xidmətlər göstərmişdir. Ulu öndərimiz Heydər Əliyev deyirdi ki, ***“Müqəddəs dinimiz olan İslamın gözəl ənənələrinin ölkəmizdə, eləcə də bütün Qafqaz bölgəsində qorunub saxlanılması və möhkəmləndirilməsində Şeyxülislam Allahşükür Paşazadənin xüsusi xidmətləri vardır. Onun Qafqaz Müsəlmanları İdarəsinə rəhbərlik etdiyi illər ərzində bu dini qurum İslam dəyərlərinin geniş təbliğ olunması, müsəlmanların dini-mənəvi birliyinin möhkəmləndirilməsi, onların cəmiyyətin həyatında fəallığının artırılması işində böyük rol oynayan mühüm mərkəzlərdən birinə çevrilmişdir”.***



Ali Məclisin Sədri demişdir: Şeyxülislam Allahşükür Paşazadə hələ orta məktəb illərində yerli ruhanilərdən dini təhsil almış, Buxarada “Mir-Ərəb” mədrəsəsinə daxil olmuş, buranı bitirdikdən sonra isə Daşkənd İslam Universitetində ali dini təhsilini davam etdirmişdir. Təhsilini başa vurub Azərbaycana qayıtdıqdan sonra Allahşükür Paşazadə Qafqaz Müsəlmanları İdarəsinin məsul katibi, Təzəpir məscidinin axundu və Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini, Naxçıvan Muxtar Respublikasının qazisi vəzifələrində çalışmışdır. 1980-ci ildə Qafqaz Müsəlmanları İdarəsinin sədri seçilən Allahşükür Paşazadənin şeyxülislamlıq fəaliyyətinin ilk illəri Sovet imperiyasının çətin dövrlərinə təsadüf etmişdir. Lakin müxtəlif siyasi hadisələrin real şahidi və iştirakçısı olmasına baxmayaraq, Şeyx Həzrətləri vətəndaşlıq mövqeyini və Azərbaycançılıq ideyalarına sədaqətini hər zaman ləyaqətlə nümayiş etdirmişdir. Fərqli quruluşlarda fəaliyyət göstərsə də o, sülhməramlı tədbirlərin bilavasitə təşkilatçısı və təbliğatçısı kimi böyük şöhrət və nüfuz qazanmışdır. Sovetlər Birliyi dövründəki dörd müsəlman ruhani idarəsindən yalnız Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi Şeyxülislam Allahşükür Paşazadənin şəxsi nüfuzu sayəsində öz mahiyyətini qoruyub saxlamış, bu gün Qafqaz Müsəlmanları İdarəsi kimi regionun ən güclü dini mərkəzinə çevrilmişdir.

Qeyd olunmuşdur ki, istər keçmiş Sovetlər Birliyi dövründə, istərsə də müstəqillik illərində Allahşükür Paşazadə xalqımız üçün taleyüklü məsələlərdə təkcə din xadimi kimi deyil, həm də ictimai fəaliyyəti ilə əsl vətəndaşlıq mövqeyi nümayiş etdirmişdir. 1989-cu ildə ilk müsəlman din xadimi olaraq SSRİ Ali Sovetinə xalq deputatı, həmçinin 1990-1995-ci illərdə Azərbaycan Respublikasının Milli Məclisinə Naxçıvan seçki dairəsindən deputat seçilən Şeyxülislam Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin, bütövlükdə, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində səmərəli və məhsuldar fəaliyyəti ilə seçilir. 20 Yanvar hadisələri zamanı dini rəhbər kimi imperiya qüvvələrinə qarşı mübarizədə göstərdiyi böyük fədakarlıq və tutduğu ədalətli mövqe, sonrakı dövrdə xalqımıza qarşı törədilmiş soyqırımları ilə bağlı dünya ölkələrinin dövlət başçılarına, parlamentlərinə və nüfuzlu beynəlxalq təşkilatlara müraciətləri bunu bir daha təsdiq edir. Ulu öndər Şeyx Həzrətlərinin müstəqil Azərbaycan naminə gördüyü işləri belə dəyərləndirirdi: ***“Azərbaycan xalqının azadlıq uğrunda mübarizəsində Allahşükür Paşazadənin tutduğu əsl vətəndaş mövqeyi onun ölkədə cərəyan edən mürəkkəb ictimai-siyasi prosesləri obyektiv qiymətləndirmək, yaranmış problemlərin həllində dini amilin gücündən düzgün istifadə etmək bacarığını nümayiş etdirdi”.***

Ali Məclisin Sədri demişdir: Qafqazda millətlərarası, dinlərarası və məzhəblərarası ayrı-seçkiliyin aradan qaldırılması, İslam həmrəyliyinin və tolerantlığın təmin olunması sahəsində Şeyx Həzrətlərinin mühüm xidmətləri vardır. Qafqaz Xalqları Ali Dini Şurasının Sədri kimi onun regiondakı münaqişələrin sülh yolu ilə həlli və sabitliyin əldə olunması, dinlər və məzhəblər arasındakı dostluq və dözümlülük münasibətlərinin möhkəmləndirilməsi naminə gördüyü işlər böyük dəyərə malikdir. Bir çox beynəlxalq dini qurum və mərkəzlərin rəhbərliyində

*Ardı 2-ci səhifədə*

təmsil olunan Şeyxülislamın mötəbər beynəlxalq konfranslarda dinlərarası dialoq və əməkdaşlıqla bağlı irəli sürdüyü təşəbbüslər daim yüksək dəyərləndirilir. Allahşükür Paşazadə görkəmli din alimidir. Elmlə dinin vəhdətini yaradan, dini təhsilin vacibliyini önə sürən Şeyxülislam tarix və ilahiyyat elmləri üzrə çoxsaylı monoqrafiyaların, elmi əsərlərin və məqalələrin müəllifidir. O, Qafqaz Müsəlmanları İdarəsinin nəzdində Elmi-Dini Şura yaratmış və ölkənin görkəmli elm və din xadimlərini bu ali qurumun işinə cəlb etmiş, Azərbaycan Respublikasının Prezidenti Yanında Ali Attestasiya Komissiyasının Ekspertlər Şurasına üzv seçilmişdir. Dini maarifçiliyi daim ön planda saxlayan Şeyxülislam Allahşükür Paşazadənin əsərləri tədqiqatçılar üçün həm islamşünaslıq, İslam mədəniyyəti və təfriqəçilik, həm də "Qurani-Kərim"in təfsiri və tərcüməsi tarixinə dair qiymətli mənbələrdir.

Ali Məclisin Sədri demişdir: Şeyxülislam Allahşükür Paşazadə ölkəmizdə və beynəlxalq aləmdə böyük nüfuza malik olan şəxsiyyətdir. Onun Azərbaycan dövləti və xalqı qarşısındakı xidmətləri yüksək qiymətləndirilmiş, ölkəmizin nüfuzlu mükafatları olan "Şərəf", "İstiqlal", "Şöhrət" və "Heydər Əliyev" ordenləri ilə təltif olunmuşdur. Lakin şəxsiyyəti ilə fəaliyyəti bir-birini tamamlayan, mənəvi borc anlayışını daim uca tutan Şeyx Həzrətləri çıxışlarının birində həyatda qazandığı bütün uğurların səbəbini belə izah etmişdir: "Heydər Əliyev həzrətləri bizi tolerantlığa, qardaşlığa, dinlər arasında dialoqa və bir-birinə hörmətə çağırırdı və bunu bizə öyrətdi. Bu siyasət bu gün də davam edir".

Şeyxülislam Allahşükür Paşazadənin ölkə Prezidenti tərəfindən uğurla davam etdirilən Heydər Əliyev yoluna sonsuz sədaqəti, dövlət-din münasibətlərinin möhkəmləndirilməsi və Azərbaycan həqiqətlərinin müdafiəsi sahəsindəki çoxşaxəli fəaliyyəti əsl vətənpərvərlik nümunəsidir. Dövlət başçısının müvafiq Sərəncamında da deyildiyi kimi: ***"Şeyxülislam Allahşükür Paşazadə bütün həyatı boyu cəmiyyətdə mənəvi-əxlaqi dəyərlərin və milli həmrəyliyin bərqərar olunması yolunda səmərəli fəaliyyət göstərmiş, yaxın tarixi keçmişdə xalqımızın yaşamış olduğu taleyüklü hadisələr zamanı həm dini rəhbər, həm də ictimai xadim kimi yüksək vətənpərvərlik və əsl vətəndaş mövqeyi nümayiş etdirmişdir".***

Ali Məclisin Sədri Şeyxülislam Allahşükür Paşazadəyə nəcib və şərəfli fəaliyyətində böyük uğurlar arzulamış, əlamətdar yubileyləri münasibətilə bir daha təbrik etmişdir.

Ali Məclisin Sədri "Naxçıvan Muxtar Respublikasının 90 illiyi" yubiley xatirə qızıl medalını Şeyxülislam Allahşükür Paşazadəyə təqdim etmişdir.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək demişdir ki, Şeyxülislam Allahşükür Paşazadə dini-ictimai xadim kimi beynəlxalq aləmdə böyük nüfuz sahibidir. O, elmi mühitdə diqqəti cəlb edən elm adamıdır. Şeyx Həzrətləri 1992-ci ildə doktorluq dissertasiyası müdafiə edərək tarix elmləri doktoru elmi dərəcəsi almışdır. 1999-cu ildən Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin professorudur. O, İslam tarixi, ilahiyyat elmləri və İslam mədəniyyəti tarixi sahəsində Azərbaycanın ilk milli tarixçi-islamşünas alimidir. Şeyxülislam tarix və ilahiyyat elmləri üzrə "Qafqazda İslam", "İslamda ümmət və şüubilik", "Quranın təfsiri və tərcüməsi tarixi", "Qurani-Kərim"in ilahi hökmləri və öyrənilməsi", "İslamda şəhidlik", "Milli münasibətlər və din", "Qurani-Kərim"in ecazkarlığı", "Qurani-Kərim"də insan təbiəti" adlı monoqrafiyaların, elmi əsərlərin və çoxsaylı məqalələrin müəllifidir. Şeyxülislamın təşəbbüsü və rəhbərliyi ilə respublikamızda onlarla beynəlxalq elmi konfrans keçirilmişdir. İsmayıl Hacıyev muxtar respublikanın ziyalıları və elm adamları adından Şeyxülislamı yubiley münasibətilə təbrik etmişdir.

Naxçıvan Muxtar Respublika Qazisi Yanında Şuranın Sədri Sahib Məmmədov çıxış edərək demişdir ki, Şeyxülislam Allahşükür Paşazadə İslamın inkişafı, çoxəsrlik milli və mənəvi sərvətlərin qorunması, sülhün və əmin-amanlığın, müstəqilliyin və ədalətin təntənəsi naminə Allaha xoş gələn və xalqımızın, dövlətçiliyimizin xeyrinə olan bir çox savab əməllərin təşəbbüskarçısıdır. Parlaq və işıqlı həyat sürən, xalqı və dövləti üçün hər an çalışan Allahşükür Paşazadə ömür yolu ilə hər bir din adamı üçün örnəkdir. Bu gün İslamın qədim mərkəzlərindən və İslam dininin olduğu kimi qorunub yaşadıldığı müqəddəs diyar Naxçıvanda Şeyx Həzrətlərinin 70 illik yubileyinin keçirilməsi mühüm əhəmiyyət daşıyır. Sahib Məmmədov Şeyx Həzrətlərinin yubileyinin muxtar respublikada qeyd olunmasını mənəvi dəyərlərimizə göstərilən qayğının daha bir ifadəsi kimi dəyərləndirmiş, muxtar respublika dindarları adından Şeyxülislam Allahşükür Paşazadəni təbrik etmişdir.

Azərbaycan Yeparxiyasının Arxiyepiskopu Aleksandr İşein Şeyxülislam Allahşükür Paşazadəni yubiley münasibətilə təbrik etmişdir. Qeyd olunmuşdur ki, Allahşükür Paşazadə nəinki Azərbaycan xalqı, eyni zamanda Qafqazda yaşayan digər xalqlar və rus xalqı tərəfindən böyük dini lider kimi qəbul olunur. Bu gün Azərbaycanda dini dəyərlərə xüsusi önəm verilir, məscidlər tikilir. Bütün dinlərə mənsub insanlar sülh və dostluq münasibətləri şəraitində azad və rahat yaşayırlar. Azərbaycandakı tolerantlığın, multikulturalizmin dünyaya tanıdılmasında Şeyxülislamın əvəzsiz xidmətləri vardır. Eyni zamanda o, beynəlxalq tədbirlərdə iştirak etdiyi zaman Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri birmənalı şəkildə ifadə edir və məsələnin sülh yolu ilə həllinin vacibliyini önə sürür.

Dağ Yəhudiləri Dini İcmasının rəhbəri Milix Yevdayev çıxışına şeirlə başlamışdır:

*Nələr keçməyibdir məğrur başından,*
*Üstünə tufan da, boran da gəldi.*
*Lakin əyilməyib daim yüksəlib,*
*Talış dağlarının vüqarı kimi.*

*Qürur, əzəmətlə o ocaq qalır,*
*Azəri yurdunun baharı kimi.*

Milix Yevdayev daha sonra demişdir: Şeyx Həzrətlərinin fəaliyyətindən çox danışılıb, çox deyilib. Ulu öndər Heydər Əliyev deyirdi ki, ***"Bir xalq öz gələcəyi ilə o zaman fəxr edə bilər ki, o, gələcəyə dünənin çiyinlərində gedir".*** Şeyx Həzrətləri də xalqının dünənini qoruyan, dəyərlərini yaşadan şəxsiyyətdir. Bu gün Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri arasında birlik vardır. Biz yəhudilər Azərbaycan xalqı ilə uzun əsrlərdən bəri bir yerdəyik. Azərbaycan xalqı ilə birgə olub, onun şad gününə sevinirik. Bu işdə Şeyx Həzrətlərinin xidməti, əməyi böyükdür. Ölkəmizdə dini tolerantlıq var. Bütün dinlərin nümayəndələri üçün hərtərəfli şərait yaradılıb. Doğma Azərbaycanımıza Allah qələbə günü qismət eləsin. Uca bayrağımız Qarabağda dalğalansın.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı demişdir: Şeyx Həzrətlərinin tərcümeyi-halında Naxçıvan dövrü xüsusi yer tutur. O, Naxçıvanın qazisi olub və bu torpaqdan SSRİ xalq deputatı və millət vəkili seçilib. Bugünkü tədbiri Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Şeyx Həzrətlərinə verdiyi dəyər kimi qiymətləndirmək lazımdır. O, Azərbaycanın keçid dövründə göstərdiyi xidmətlərlə öz adını tarixə yazdıran şəxsiyyətlərdəndir. Azərbaycan müstəqillik əldə etməmişdən öncə Şeyx Həzrətlərinin böyük nüfuzu sayəsində İslam Əməkdaşlıq Təşkilatına üzv seçilmişdir. Onun siyasi, ictimai, həm də elmi fəaliyyəti nümunə gücündədir. Şeyxülislam Azərbaycan xalqının yetirdiyi siyasi və ictimai xadim kimi bütün sahələrdə özünü təsdiq etmişdir. Məhz Şeyxülislamın yubileyinin qeyd edilməsi də onun xidmətlərinə verilən yüksək qiymətdir.

Azərbaycan Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov çıxış edərək demişdir ki, Şeyxülislam həmişə xalqın ağır günlərində onun yanında olmuş, vətəndaş həmrəyliyinin möhkəmləndirilməsində mühüm xidmətlər göstərmişdir. O, nəinki Azərbaycanda, bütün Qafqazda dini həmrəyliyə nail olmuşdur. Allahşükür Paşazadə xalqın etibarını, inamını qazanmış dini liderdir. Bu gün Azərbaycan ölkə Prezidenti İlham Əliyevin ulu öndərin yolunu uğurla davam etdirməsi nəticəsində dünyada böyük nüfuza malikdir. Şeyx Həzrətləri bu sahədə hər zaman ölkə Prezidentinin yanındadır və ölkəmizdə multikultural və tolerant mühitin yaradılmasında mühüm xidmətləri vardır.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli çıxış edərək demişdir: Şeyxülislam Allahşükür Paşazadənin fəaliyyəti bir çox cəhətdən əhəmiyyətlidir. Dünya dini liderlərinin II Sammiti Şeyxülislamın beynəlxalq səviyyədə dini lider kimi qəbul olunduğunu bir daha təsdiq etdi. Çünki dünyada baş verən bir çox hadisələrin, mübahisəli məsələlərin həllində Şeyxülislam vasitəçilik edib, barış missiyasını həyata keçirib, sülhsevərlik istiqamətində fəaliyyət göstərib. Şeyxülislamın bu mərhələyə çatması Azərbaycanın dövlət müstəqilliyinin dini dəyərlərə, dini şəxsiyyətlərə verdiyi qiymətin, yaratdığı imkanın, açdığı böyük meydanın parlaq təzahürüdür. Allahşükür Paşazadənin xidmətlərindən biri də, dini dəyərlərlə milli dəyərləri uzlaşdırmağı bacarmasıdır. Bu gün Şeyxülislam Azərbaycan ziyalıları ilə çox yaxşı münasibətdədir. Onun Azərbaycan Milli Elmlər Akademiyası ilə əməkdaşlığı dini dəyərlərin, din faktorunun elmi ideyalar əsasında inkişaf etdirilməsi baxımından əhəmiyyətlidir. Bu gün dini-mənəvi dəyərlərin qorunub yaşadıldığı Naxçıvan Muxtar Respublikasında Şeyxülislam Allahşükür Paşazadənin yubileyinin qeyd olunması da onun şəxsinə verilən böyük qiymətin ifadəsidir.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə 70 illik yubileyinin Naxçıvanda qeyd olunmasına görə Ali Məclisin Sədrinə minnətdarlıq edərək demişdir: "Bu gün ölkəmizdə dini dəyərlər yaşadılır. Ulu öndərin yolunu davam etdirən ölkə Prezidenti dövlət-din münasibətlərinin möhkəmləndirilməsinə xüsusi diqqət yetirir. Ölkəmizdə 70 illik yubileyimin qeyd olunması, bu gün isə qədim Naxçıvanda yubiley tədbirimin keçirilməsi fəaliyyətimə verilən yüksək dəyər və qiymətdir. Naxçıvanın mənim qəlbimdə xüsusi yeri vardır. Həyatda nəyə nail olmuşamsa, nə qazanmışamsa onların hamısında Naxçıvanın payı var. Vaxtilə məni mərkəzdən uzaqlaşdırmaq üçün Naxçıvana qazi göndərdilər. Lakin burada qazi kimi fəaliyyət göstərdiyim illər həyatımın ən dəyərli mərhələsini təşkil etdi və məni formalaşdırdı. Əgər mən Azərbaycan Respublikasının Milli Məclisinə Naxçıvan seçki dairəsindən deputat seçilməsəydim, ölkəmiz üçün ağır günlərdə sözümü deyə bilməzdim. Bu şəraiti mənə naxçıvanlılar yaradıb. Ulu öndər Heydər Əliyev isə mənə həqiqəti görməyi, doğru yolla getməyi, Azərbaycançılığı, Vətəni və dini sevməyi öyrətdi. Allah mənə nə qədər ömür veribsə, bundan sonra da xalqıma, Vətənimə xidmət edəcəyəm".

Sonra "Humanizmə çağırış" filminə baxış olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Şeyxülislam Allahşükür Paşazadə tədbir iştirakçıları ilə xatirə şəkli çəkdirmişlər.

## Ordubadda Allahşükür məscidi istifadəyə verilmişdir





Dekabrın 4-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin yubiley tədbiri çərçivəsində Ordubad rayonunun Dırnıs kəndində "Allahşükür məscidi" istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə açılış tədbirində iştirak etmişlər.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə çıxış edərək demişdir: Yeni məscidin istifadəyə verilməsi Naxçıvanda dini dəyərlərə göstərilən qayğının nümunəsidir. Bu yol ulu öndər Heydər Əliyev yoludur. Bu yol Azərbaycanı daha işıqlı sabahlara aparır. İlk dəfə adım bir məsciddə əbədiləşir. Bu mənim üçün böyük qürur və iftixardır. Bütün bunlara görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığımı bildirirəm. Allah doğma Azərbaycanımızı, Naxçıvanımızı qorusun.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Allahşükür məscidinin istifadəyə verilməsi münasibətilə dindarları və kənd sakinlərini təbrik edərək demişdir: Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamına uyğun olaraq Şeyx Həzrətlərinin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illiyi ölkəmizdə qeyd olunur. İnsanın dəyəri onun əməyindədir. Zəhmət insanı şəxsiyyətə, ölkələri isə qüdrətli dövlətə çevirir. Şeyx Həzrətlərinin də bu illər ərzində zəhməti onun şəxsiyyət kimi formalaşmasına səbəb olmuşdur. Şeyxülislam Allahşükür Paşazadə Naxçıvanın qazisi olmuş, SSRİ Ali Sovetinin və Azərbaycan Milli Məclisinin deputatı seçilmişdir. Naxçıvanda onun adının əbədiləşdirilməsi Şeyxülislama göstərilən ehtiramın ifadəsidir. Çünki Allahşükür Paşazadə kimi dəyərli insanların fəaliyyəti nəticəsində bu gün ölkəmizdə dini sabitlik hökm sürür.

Ali Məclisin Sədri Allahşükür Paşazadəyə uzun ömür, cansağlığı arzulamış, məscidin tikilməsində əməyi olanlara təşəkkürünü bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə məsciddə yaradılan şəraitlə tanış olmuşlar.

*Ardı 3-cü səhifədə*



Məlumat verilmişdir ki, məsciddə axund otağı, qadın və kişi ibadət zalları, eləcə də digər otaqlar yerləşir. Minarəsinin hündürlüyü 19 metr olan məscidin həyətində dəstəmaz yeri tikilmiş, geniş abadlıq işləri aparılmış, işıqlandırma və suvarma sistemləri qurulmuş, istilik sistemi ilə təmin edilmişdir.

Sonra məsciddə ilk namaz qılınmış, dualar oxunmuşdur.

Ali Məclisin Sədri sakinlərlə görüşmüşdür.

Sakinlərdən Adil Möhsümov və Rza Allahyarov yaradılan şəraitə, göstərilən diqqətə görə kənd əhalisi adından minnətdarlıq etmişlər. Rza Allahyarov demişdir: “Naxçıvanda geniş quruculuq işləri aparılır. Bütün kəndlərimiz abadlaşır. Vaxtilə biz kənddə çox çətinliklərlə üzləşirdik. Lakin ulu öndərimizin siyasi xətti Azərbaycanı, onun hər bir guşəsini xoş günlərə qovuşdurdu. Artıq kəndlərimizdə sosial obyektlərlə yanaşı, məscidlər də tikilir. Bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha da inkişaf edir. Biz sakinlər, xalqımız ölkə Prezidentinin yanındayıq, onun siyasətini dəstəkləyirik”.

Dindar Ağəli İsaqov demişdir: “Ali Məclis Sədrinin hər gəlişi rayonumuza yenilik gətirir. Yeni binalar, xəstəxanalar tikilir, yollar çəkilir. Bu gün ən ucqar kəndlərimiz belə, elektrik enerjisi və təbii qazla təmin olunmuşdur. Muxtar respublikanın hansı guşəsinə ayaq qoysan, orada yeniliyin, abadlığın, səliqə-sahmanın şahidi olursan. Bu gün kənd məscidinin istifadəyə verilməsi də dindarlara və kənd sakinlərinə hədiyyədir. Dövlətimizin gündən-günə qüdrətlənməsi üçün namazımızda dualar edirik. Elmlə din vəhdət təşkil etməlidir. Əgər elm dindən ayrıdırsa uçurum, din elmdən ayrıdırsa xurafatdır. Muxtar respublikamızda başqa sahələr kimi, dinimizə də xüsusi qayğı ilə yanaşılır, məscidlər tikilir. Hər bir kənddən, şəhərdən azan səsi gəlir. Azan səsi gələn yerdə isə xeyir-bərəkət, birlik və rifah olar”.

Ali Məclisin Sədri demişdir ki, bu gün ölkəmizdə sabitlik və inkişaf vardır. Bunlar olan yerdə isə insanlara qayğı göstərilir, onların yaşayışı üçün hərtərəfli şərait yaradılır. Sakinlər də bu imkanlardan düzgün istifadə etməli, tikilənlər qorunub saxlanılmalıdır.

* * *



Tikinti işləri aparılarkən məscidə 550 metr uzunluğunda yeni asfalt yol salınmış, 1 körpü tikilmiş, 110 metr beton su kanalı çəkilmiş, 19 su keçidi qoyulmuşdur. Həmçinin 220 metr məsafədə sahilbərkitmə işləri aparılmış, 100 metr istinad divarı tikilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

*Toponimlər tariximizdir*

## Oğuzların qədim Bəgdüz tayfasının əmanəti – *Böyükdüz kəndi*

Qədim Naxçıvan Gəmiqaya rəsmləri, arxeoloji nümunələri ilə yanaşı, özündə tariximizi əks etdirən toponimik sistemi ilə də diqqəti cəlb edir. Coğrafiyamızı, dilimizi yaşadan ən qədim məkan olan bu diyarda bu gün As, Alban, Sak, Kəngərli, Oğuz, Uz, Bus, Hun, Bulqar, Xəzər və digər tayfa və tayfa birləşmələrinin izlərinə rast gəlirik. Naxçıvanın tarixini dərindən öyrənmək üçün milli yaddaşımızın daşıyıcısı olan “Kitabi-Dədə Qorqud” dastanından tutmuş “Naxçıvan Abidələri Ensiklopediyası”na qədər, həmçinin rus dilində çap olunmuş elmi-tədqiqat əsərlərini araşdırmaq, ümumiyyətlə, bu torpağı qarış-qarış gəzmək, ömrünü-gününü dağlarda keçirən çobanlarla söhbət etmək, təbiəti sevən yaşlı insanlarla ünsiyyət qurmaq əhəmiyyətlidir və bunlarsız fikir söyləmək çətin olardı.

Qeyd etmək lazımdır ki, toponimlər dilimizdə mövcud olan söz qrupları əsasında yaranmış, mənasına görə müxtəlif yollarla formalaşmışdır. Onların bir çoxu uzaq tarixi keçmişimizə, bir qismi isə son dövrlərə aid olan dil faktlarıdır. Belə ki, coğrafi obyektlərə ad verərkən obyektlərin müəyyən əlamət və xüsusiyyətləri nəzərə alınmışdır. Adlandırma daha çox hər hansı şəxs, tayfa, tayfa birləşmələri, tirə, qəbilə və sülalə adları əsasında formalaşmışdır. Bu baxımdan Böyükdüz etnotoponiminin tarixinə nəzər salsaq, görərik ki, bu ərazidə yaşayış antik dövrdən mövcud olmuşdur. Yaşayış yeri 1991-ci ildə AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev tərəfindən qeydə alınmışdır. Tədqiqatlar zamanı buradan antik dövr və son orta əsrlər üçün xarakterik olan çəhrayı rəngdə bişirilmiş gil qab qırıqları tapılmışdır.

Araşdırmalardan belə məlum olur ki, orta əsr Böyükdüz yaşayış yerində həyat XI əsrdən başlanmışdır. Müasir Böyükdüz kəndi 1929-cu ildə Şahtaxtı kəndindən köçüb gəlmiş yeddi ailə tərəfindən salınmışdır. Əvvəlki adı Böyük Düz olmuş və 2003-cü il mart ayının 1-dən dəyişdirilərək “Böyükdüz” adlandırılmışdır. Köhnə kənd Araz çayı yaxınlığında Qağalıq stansiyası, Bakı-Naxçıvan dəmir yolunun 420-ci kilometrliyində yerləşir. Böyükdüz etnotoponimi son dövrlərə qədər Babək rayonunda kənd adı olmuş, eyni zamanda burada eyniadlı təpə də mövcuddur. Hazırda yaşayış məntəqəsi Kəngərli rayonunun inzibati ərazisinə daxildir.

Mərhum toponimşünas alim Adil Bağırov tədqiqatlarında qeyd etmişdir ki, XIX əsr və ondan əvvəlki dövrlərdə, eləcə də 1936-cı ilə aid arxiv materiallarında “Böyükdüz” adına rast gəlinmir. Ancaq 1918-1920-ci illəri əks etdirən xəritədə bu ad öz əksini tapmışdır. 1963-1969-cu illərdə Araz Su Anbarının tikintisi ilə əlaqədar Böyükdüz kəndi öz əvvəlki yerindən indiki əraziyə köçürülmüşdür.

İstər elmi ədəbiyyatda, istərsə də xalq arasında “Böyükdüz” adının mənşəyi ilə bağlı maraqlı fikirlər vardır. Belə ki, xalq arasında kəndin adının daha çox yerləşdiyi ərazinin adı ilə bağlı olduğu deyilir. Bu fakt bəzi mənbələrdə də öz əksini tapır. “Azərbaycan toponimlərinin ensiklopedik lüğəti”ndə qeyd olunur ki, kənd düz, nisbətən geniş (böyük) ərazini əhatə etdiyinə görə belə adlanmışdır. Bu elmi izahın istinad mənbəyi yoxdur, çünki Böyükdüz kəndinə bu ad yerləşdiyi ərazinin relyef quruluşuna görə verilməmişdir. Həmin yaşayış yeri orta əsr mənbələrində xatırlanan Böyükdüz (Bəkdüz) tayfasının yadigarıdır. Bu tayfa haqqında orta əsr müəlliflərindən Mahmud Qaşqarinin, Rəşidəddinin, Əbülqazi Bahadır xanın əsərlərində və “Kitabi-Dədə Qorqud”da məlumat verilmişdir. Tayfanın adına bir sıra ərəb və fars mənbələrində də rast gəlinir. Yuxarıda qeyd edilən mənbələrdə bu tayfanın adı “Buqdur”, “Bəkdəz”, “Bukdüz”, “Bəkdüz”, “Böyükdüz” şəklində xatırlanmışdır.

Böyükdüz tayfaları orta əsrə məxsus iyirmi dörd oğuz tayfasından biridir. “Kitabi-Dədə Qorqud”da Bəkdüz Əmən Bayandır xanın və Qazan xanın yaxın silahdaşı kimi xatırlanır. Mənbələrdə yad edilən rəvayətlərə görə, Bəkdüz Əmən Məhəmməd Peyğəmbərlə görüşmüş, oğuzlar içərisində ilk dəfə İslamı qəbul etmiş və onu yaymışdır. Professor Səfəralı Babayev bu adı “Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boyu bəyan edər” boyundakı Bəgdüz Əmənin adı ilə əlaqələndirir. Əzizxan Tanrıverdiyev isə dastanda adıçəkilən “Bığı qanlı Bəgdüz Əmən” birləşməsini antroponim kimi təqdim edir və Bəgdüz adındakı bəg komponentini bəy(bək), bək titulunun fonetik variantı, düzü isə qədim türk dilində tuz variantında işlənmiş “düz, bərabər, həqiqi, doğru, sədaqətli” mənalarında işləndiyini yazmışdır. Professor Faruk Sumer də Oğuz boyları haqqında danışarkən dastandakı “bıyığı qanlı” kimi təsvir edilən Əmən bəyin büğdüzdən olduğunu, bu tayfa adının Türkiyə ərazisindəki toponimlərdə öz izini saxladığını qeyd edir. Onun fikrincə, hələ XVI əsrdə Anadoluda büğdüzlərə aid 22 yer adı qeydə alınmışdır ki, bunların da 19-u məntəqə adıdır. Bu gün həmin yer adlarının ancaq üçü qalır.

Bütün bu deyilənlərdən sonra belə nəticəyə gəlirik ki, “Böyükdüz” adının mənşəyi oğuzların “Bəgdüz” tayfa adı əsasında yaranmışdır.

**Cəmilə MƏHƏRRƏMOVA**
***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun əməkdaşı***

## Mühəndis texnikalarının növbəti hissəsi silahlanmaya daxil edilib

***Əlahiddə Ümumqoşun Orduda mühəndis təminatı işinin daha da yaxşılaşdırılması məqsədilə Türkiyə Respublikasının istehsalı olan mühəndis texnikalarının növbəti hissəsi silahlanmaya daxil edilib.***





Türkiyə Respublikasının HİDROMEK şirkətinin istehsalı olan təkərli və tırtıllı yükləyici, ekskavator və qreyderlər, eləcə də onların ehtiyat hissələri Naxçıvan Muxtar Respublikasına Araz çayı üzərindəki “Ümid” körpüsündən xüsusi daşıma vasitələri ilə gətirilib.

Mühəndis texnikalarının silahlanmaya daxil edilməsi münasibətilə Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsində mərasim keçirilib.

Mərasimdə hərbi hissənin zabiti Ramil Dadaşov və HİDROMEK şirkətinin nümayəndəsi Murad Armağan Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında mövcud olan yüksək səviyyəli hərbi əməkdaşlıqdan danışıblar. Bildirilib ki, “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi maliyyə əməkdaşlığı haqqında Saziş”ə əsasən yeni texnikaların silahlanmaya qəbul edilməsi mühəndis təminatı bölmələrinin texniki imkanlarının Türkiyə Respublikasının milli istehsalı olan texnikalarla gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Çıxışların ardından texnikaları gətirmiş heyətə Əlahiddə Ümumqoşun Ordu komandanlığı tərəfindən qiymətli hədiyyələr təqdim edilib.

Qeyd edək ki, qardaş Türkiyə Respublikasının HİDROMEK şirkətinin mühəndisləri tərəfindən hazırlanmış təkərli və tırtıllı yükləyici, ekskavator və qreyderlər bir çox üstünlüklərə malikdir. 40 ildən artıq istehsal təcrübəsi olan HİDROMEK şirkətinin istehsal etdiyi mühəndis texnikaları davamlılığı, yanacağa qənaəti və rahatlığı ilə seçilir. Müasir dizayn və texnologiyalı HİDROMEK maşınları fərqli iş şəraitlərində operatorun rahat və təhlükəsiz işləməsini təmin edir.

Beynəlxalq nüfuzlu dizayn mükafatlarına layiq görülmüş HİDROMEK texnikaları inşaat maşınları bazarında özünəməxsusluğu ilə seçilir. Təkərli və tırtıllı ekskavatorlar ağır tikinti işlərində fasiləsiz işləyə bilir. Qabaqcıl texnologiya ilə istehsal olunan arxa yükləyicilər çətin şəraitdə ildə 2000 saatdan artıq istifadə üçün nəzərdə tutulub. Bu yükləyicilər geniş görüntü bucağı və operator üçün rahat iş mühiti ilə ən çətin şəraitdə belə, görülən işi asanlaşdırır. HİDROMEK şirkətinin istehsal etdiyi qreyderlər qazma, kəsmə və kürümə ilə bərabər müxtəlif işlər üçün təyin edilib.

**Nəriman NƏCƏFOV**

## Maarifləndirmə tədbirlərinə start verilib

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq dekabrın 1-dən ictimai yerlərdə, xüsusən məktəb və uşaq bağçalarında kəskin respirator infeksion xəstəliklərinin profilaktikası məqsədilə dezinfeksiya işlərinə start verilib.*

Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzi, onun rayon təşkilatları tərəfindən icra olunan bu tədbir, ilk növbədə, əhalinin sıx məskunlaşdığı yerlərdə aparılır.

Naxçıvan Gigiyena və Epidemiologiya Mərkəzi Naxçıvan şəhərinin dəmiryol və avtovağzallarında, topdan və pərakəndə satış məntəqələrində dezinfeksiya tədbirlərinə start verib. Naxçıvan şəhərindəki Avtovağzal kompleksində, dəmiryol vağzalında dezinfeksiya işləri həyata keçirilib, qapı dəstəklərinə alma sirkəsi ilə isladılmış tənziflər sarınıb.

Rayonlarda isə əsas etibarilə, məktəblərin sinif otaqlarında, idman zallarında, qarderoblarında, bufet və yeməkxanalarında, dəhlizlərində, sanitar qovşaqlarında və digər yerlərdə dezinfeksiya işləri təşkil edilib. Tədbirin gedişində tibb işçiləri tərəfindən məktəb və məktəbəqədər uşaq müəssisələrinin girişində tibbi müşahidələr aparılır. İxtisaslaşdırılmış kabinələrdə termometriya işi təşkil edilir. Kəskin respirator virus infeksiyası xəstəliyinə yoluxmaqda şübhəli bilinənlər ambulator müalicəyə göndərilir. Xəstəlik halları müşahidə edilmiş uşaqlar haqqında isə Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının Poliklinika şöbəsi ilə əlaqə saxlanılır.

Dezinfeksiya tədbirləri mövsüm ərzində davam etdiriləcək.

***Naxçıvan Muxtar Respublikası***
***Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Muxtar respublikamız öz füsunkar gözəlliyi və zəngin təbii sərvətləri, müasir infrastrukturu ilə çoxsaylı turistlərin sevimli istirahət və əyləncə məkanına çevrilib. Noyabr ayının əvvəllərində diyarımıza səfər edən malayziyalı turist Abdül Karim Abdül Qadir də Naxçıvandan zəngin təəssüratlarla ayrılıb. Onun “Şərq qapısı” qəzetinə ünvanladığı təəssüratlarla oxucularımızı da tanış edirik.*

Yurdumuzun qonaqları

# Naxçıvana ilk səfərimin təəssüratları



Noyabrın 4-də Naxçıvana səfər etmək üçün Dubaydan Bakıya gəldim. Bu mənim Naxçıvana ilk səfərim idi. Gəlin indi sizə Azərbaycan, xüsusən də Naxçıvan haqqında danışım. Təxminən, bir həftə Bakıda qaldım, hava limanından şəhər mərkəzinə qədər yollara heyran oldum. Onlar geniş və hamardır. Bütün yol işarələri aydın və effektivdir. Həmçinin Naxçıvandakı hava limanından şəhər mərkəzinə aparan yolların hər iki tərəfindəki mənzərələr gözəldir. Bakı kimi, Naxçıvan şəhərindəki binalar da xoş dizaynı və müasir arxitektura üslubu ilə göz oxşayır. Memarlıq üçün çətin olan binalar tikilib və bu tikililər birinci mərtəbədən sonuncusuna qədər fərqlidir.

Qeyd edim ki, hava limanına enib, çantalarımızı aldıqdan sonra növbəti 3 gün üçün bizə bələdçilik edəcək Kamal Yahyalı tərəfindən qarşılandıq. Otelimizə gedərkən Kamal bizə qəlyanaltı təklif etdi. Süfrədə çay, çörək, yağ və pendir var idi. Yaxşı kiçik nahar... Biz Saat Meydanındakı geniş otaqları olan, təmiz və modern avadanlıqlarla təchiz edilmiş otelə getdik. Buraya yerləşdikdən sonra foyeyə düşdük və bizi gözləyən Kamal xoş təbəssümlə turumuza başlamağa hazır olduğunu bildirdi.

Otelimizdən duz mağaralarına 15 kilometr yol qət etdik. Duzdağ duz mədənlərinə gəldiyimiz zaman orada az adamla rastlaşdıq. İrəliyə doğru tunelin hər iki tərəfinin çoxlu rəngarəng lampalar ilə işıqlandırıldığını gördük və orada həzin musiqinin olduğunu xəyal etdim. Mən həmin vaxt dağın zirvəsinin altında olduğumuza əmin idim. Sol tərəfdə yerləşən palataya girdiyimiz zaman bizə xüsusi geyimli bir qadın yaxınlaşdı. Kamal həmin xanım ilə asta səslə danışaraq bizim niyyətimizi ona bildirdi. Tibb bacısı bizə izah etdi ki, astma-bronxit problemləri və digər xəstəliklər olan insanlar müalicə üçün buraya çox gəlir. Əvvəllər astma tutmalarım olduğundan oranın mənə müsbət təsir göstərəcəyini düşündüm. Çölə çıxarkən Kamal yolda bizə dedi ki, burada xüsusi müalicə almaq istəyənlər üçün bir paket təklif olunur. Gündə 80 manata sizə oteldə yerləşmə, səhər və nahar yeməyi verilir. Bundan əlavə, duz mədəninə gəliş və gedişiniz üçün nəqliyyat vasitəsilə də təmin edilirsiniz – bu, əlverişli paketdir!

Geri döndüyümüzdə Duzdağdakı duz mədəninin gələcəkdə dünyada tanınmış bir kurort ola biləcəyini və buraya daha çox turist cəlb etməyin yollarını düşünürdüm. Bunun üçün Duzdağa aparan yolboyu ingilis dilində daha çox işarə və “duz terapiyası”ndan istifadə edən insanların təəssüratlarını əks etdirən lövhələrin qoyulması, xarici dildə paket və broşürlər hazırlanması da öz effek-



tivliyini verə bilər.

Dayanacaq yerindən bir qədər aralı məsafədə duz dağlarını görürük – tamamilə duzdan ibarət dağlar. Mənə maraqlıdır ki, axı duz dağı necə ola bilər? Ola bilərmi ki, bura minilliklər öncə dəniz olub?!

Mağaradan çıxdıqdan sonra tənəffüsümün yaxşılaşdığını hiss etdim. Həmçinin ürək problemləri olan və hisslərini sözlərlə ifadə edə bilməyən qudam mağaradakı qısa gəzintisindən sonra əhvalının xeyli yaxşılaşdığını təsvir edirdi.

Şəhər mərkəzinə qayıdırıq. Demək olar ki, qaranlıq idi, Kamal bizi Nuh Peyğəmbərin türbəsini görməyə gətirdi. Çoxsaylı araşdırma və arxeoloji tədqiqatların nəticələri bu türbənin Nuh Peyğəmbərə aid olduğunu təsdiq edir. Bunun özü turistləri, xüsusilə müsəlmanları cəlb edəcək bir turistik məkandır. Bu məzarın yanında bir məscid var, amma artıq qaranlıq olduğundan dincəlmək üçün otelimizə qayıtdıq.

Ertəsi gün biz Culfa rayonunda olan Darıdağ termal bulağına gəldik və buradakı xidmətlər ilə tanış olduq, həkimlə ayaqüstü söhbət etdik. O, bir elm adamı və bu arsenli müalicəvi su haqqında kitabın müəllifidir. Həkim dedi ki, İtaliya, Fransa və Kanadada tapılan istilik bulaqları ilə müqayisədə bu bulaq daha faydalıdır. O, bu müalicəvi su ilə maraqlandığımızı görüb kitabını imzalayaraq mənə hədiyyə etdi.

Bura həm yerli, həm də beynəlxalq turistlərin gəlmələri və müalicə almaları üçün əvəzsiz bir yerdir. Biz artıq geri dönürük. Geri dönərkən bir neçə dəfə dayanaraq dağlar və göllərin əhatəsində olan bu möcüzəli yerin şəkillərini çəkməyə başladıq. Buranın saf havası, həqiqətən də, yaddaqalan bir xatirədir!

Ordubadda gördüklərimiz eşitdiklərimizdən çox oldu. Burada dağların zirvəsindən süzülərək ətəyində toplanan bir gölün yanında dayandıq. Üzümüzü yuyub həmin sudan içdik. Su soyuq idi və adamı təravətləndirirdi.

Haqqında eşitdiyimiz Batabat yaylağına da getdik. Buradan aldığımız təəssüratlar da yüksək oldu. Yaylaqda açıq havada ənənəvi qaydada çay, çörək, bal, pendir və mürəbbə ilə sadə və dadlı bir qəlyanaltı etdik.

Azərbaycanın bu qədim diyarına üçgünlük səfərimiz bizdə xoş təəssüratlar yaratdı. Vətənimizə qayıtdıqda bu təəssüratları yaxınlarımızla da bölüşdük və onlara da Naxçıvanın gözəlliklərini görməyi tövsiyə etdik.

**Abdül Karim Abdül Qadir**
**Malayziya**

# Beynəlxalq Könüllülər Günü qeyd olunub

***Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun təşkilatçılığı ilə Naxçıvan şəhərindəki “Görüş yeri” kafesində 5 dekabr – Beynəlxalq Könüllülər Gününə həsr olunmuş tədbir keçirilib.***



Tədbirin aparıcısı bildirib ki, 17 dekabr 1985-ci il Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının Qətnaməsi ilə 5 dekabr tarixi sosial və iqtisadi inkişaf naminə Beynəlxalq Könüllülər Günü olaraq təsis edilib. Vurğulanıb ki, könüllülük sağlam vətəndaşlıq mövqeyinin göstəricisidir. Könüllülük öyrənmək, yaratmaq, əylənmək, fürsət və cəsarətdir. Könüllülük gənclikdir.

Tədbirdə giriş sözü ilə çıxış edən Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev könüllü gəncləri bu gün münasibətilə təbrik edərək bildirib ki, son illər muxtar respublikada könüllülük fəaliyyətinin yaradılması və genişlənməsi məhz Gənclər Fondunun adı ilə bağlıdır. Hazırda fondun könüllülük proqramının iştirakçılarının sayı 350-ni keçib. Onlar son illərdə muxtar respublikada baş tutan bir sıra mühüm tədbirlərdə yaxından iştirak ediblər. Naxçıvan şəhərində Gənclər Paytaxtı çərçivəsində reallaşan tədbirləri, şəhər mərkəzindəki ilk irimiqyaslı fləşmobu, “Yer saatı” ekoloji aksiyasını, “Novruz qatarı”nı və bu ilin may ayında baş tutan Naxçıvan marafonunu, intellektual oyunlar üzrə çoxnövçülük turnirlərini buna misal göstərmək olar.

Vurğulanıb ki, muxtar respublikada aidiyyəti qurumlarla birgə vətəndaşların işinin asanlaşdırılmasına təmənnasız olaraq yardım edən “Səyyar dövlət qulluğu xidməti könüllüləri”, ekologiyamızın və təbii sərvətlərin qorunması istiqamətində maarifləndirmə missiyası aparan “Ekologiya könüllüləri”, sosial sahədə xidmət göstərən, içində olduğumuz sosial münasibətlərin ayrılmaz parçasına çevrilmiş “Sosial könüllülər” layihələri uğurla icra edilir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev çıxış edərək könüllülük fəaliyyətinin ictimai, sosial və tərbiyəvi əhəmiyyətini nəzərə alaraq “Sosial könüllülük” layihəsinin başlanılmasından və bu sahədə qazanılan uğurlu nəticələrdən danışıb, könüllülər günü münasibətilə gəncləri təbrik edib, gələcək fəaliyyətlərində onlara müvəffəqiyyətlər arzulayıb.

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər naziri Mayis Əliyev çıxış edərək “Ekologiya könüllüləri” layihəsinin ötən dövr ərzindəki fəaliyyətinə nəzər salıb. Gənclərin ətraf mühit və təbii sərvətlərin qorunması işində, ağacəkmə kampaniyalarında fəal iştirak etdiklərini, bununla da ətraf mühitin mühafizəsi sahəsində uğurlu nəticələr qazanıldığını diqqətə çatdırıb. Nazir gəncləri könüllülük prinsipinin daşıyıcısı olmağa çağırıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri İsmayıl Qəribli çıxış edərək könüllü gəncləri uğurlu fəaliyyətlərinə görə təbrik edib. Qeyd olunub ki, gənclərin dövlət qulluğu səriştəsinə yiyələnməsi, onlarda vətənpərvərlik və dövlətçiliyimizə sədaqət ruhunda bilik, ilkin əmək vərdişləri, kollektivdə çalışmaq kimi bacarıqların artırılması baxımından “Səyyar dövlət qulluğu xidməti könüllülüyü” gənclərə böyük töhfələr verir.

Qeyd edək ki, tədbir müddətində könüllülük proqramlarının iştirakçılarının fəaliyyətini əks etdirən videoçarxlar nümayiş olunub.

Sonra könüllülük proqramlarının iştirakçıları sosial, ekologiya, Gənclər Fondu könüllüləri “İlin ən fəal könüllüsü” nominasiyaları üzrə təltif ediliblər.

Tədbirin bədii hissəsində Naxçıvan Dövlət Filarmoniyasının Estrada Orkestrinin, eləcə də könüllü gənclərin ifaları dinlənilib. Müxtəlif rəqslər, maraqlı oyunlar, müsabiqələrlə davam edən tədbir könüllü gənclər tərəfindən əyləncə proqramı ilə başa çatıb.

**Xəbərlər şöbəsi**



# Cüdoçumuz birinciliyin qalibi olub

***Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının yetirmələri Bakı şəhərində təşkil olunan birincilikdə iştirak ediblər.***

Belə ki, Bərgüşad İdman Klubunun açıq birinciliyində 100-dən çox idmançının mübarizəsində cüdoçumuz uğurlu çıxış edib. +55 kiloqram çəki dərəcəsində tatami üzərinə çıxan Qalib Qaybalıyev bütün rəqiblərini üstələyərək birinciliyin qızıl medalını qazanıb.

Sonda idmançımız diplom və medalla mükafatlandırılıb.

**✍ Ceyhun MƏMMƏDOV**

# Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** *Övladlığa götürmənin ləğvi hansı hüquqi nəticələrə səbəb olur?*

***Cavab:*** Məhkəmə övladlığa götürülməni ləğv etdikdə, övladlığa götürülmüş uşağın və övladlığa götürənlərin (onların qohumlarının) qarşılıqlı hüquq və vəzifələrinə xitam verilir. Uşağın mənafeyi bunu tələb edərsə, onunla valideynləri (onun qohumları) arasında qarşılıqlı hüquq və vəzifələr bərpa olunur. Övladlığa götürmə ləğv olunduqda uşaq məhkəmənin qətnaməsi ilə valideynlərə qaytarılır. Bu halda, uşağın valideynləri olmadıqda, yaxud uşağın valideynlərinə qaytarılması onun mənafeyinə ziddirsə, uşaq müvafiq icra hakimiyyəti orqanının himayəsinə verilir.

Məhkəmə uşağa övladlığa götürülərkən verilən ad və soyadın saxlanıb-saxlanılmamasını da həll edir. 10 yaşı tamam olmuş uşağın adı və soyadı onun öz razılığı ilə dəyişdirilə bilər.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

# Yaşıllaşdırma işləri görülüb



“Arpaçay” Dövlət Təbiət Yasaqlığının ərazisində toxumla bərpa işləri aparılıb. Tədbir zamanı 5 hektarlıq sahəyə yemişan, həmərsin, badamça, iydə, armud və ardıc bitkilərinin toxumları əkilib.

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Şərur Rayon İcra Hakimiyyəti ilə birgə təşkil etdiyi tədbir rayonun Şahbulaq kəndinin yaxınlığında, dağlıq ərazidə həyata keçirilib.

Qeyd edək ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xətti ilə bu il Şərur rayonunda daha 8 hektar sahədə, xüsusən də Havuş kəndinin yaxınlığında və Qaraquş deyilən ərazidə toxumla bərpa işləri aparılıb. Tədbirlər gələcəkdə də davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

***Bildiriş***

Naxçıvan Dövlət Universiteti 2019-2020-ci tədris ilinin payız semestrinin imtahan sessiyası ilə əlaqədar qiyabiçi tələbələrin nəzərinə çatdırır:

1. Universitetin qiyabi şöbəsinin bütün ixtisaslarında (əlavə ali təhsil daxil olmaqla) payız semestrinin imtahan sessiyası 7 yanvar 2020-ci il tarixdən başlayır və 15 iş günü davam edir.

2. Bütün qiyabiçi tələbələrin sessiyada iştirakı zəruridir.

**Rektorluq**

* * *

“Cahan Red-2” (VÖEN-0200701941) MMC fəaliyyətini dayandırdığından ləğv olunur.

***İtmişdir***

Culfa rayonunun Xoşkeşin kəndində Vəliyev Əbülfəz Əhməd oğlunun adına olan JN-108A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Pərviz Hacılı

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1495. Sifariş № 831